**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyasının tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiya üzvlərinin sayı 13 (on üç) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavinləri;
Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının rəhbəri;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının ekoloji siyasət şöbəsinin müdiri;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının hüquq məsələləri şöbəsinin müdiri;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin rəisi;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi;
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidmətinin rəisi.

2. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 8, maddə 540; 2006, 2, maddə 195; 2014, 7, maddə 913; 2017, 4, maddə 623; 2018, 11, maddə 2424) ləğv edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 15 avqust 2020-ci il
296